Rayonlaşdırılmış sortların Belorusiya Dövlət Reyestrində 2013221 nömrəsi ilə qeydə alınmışdır. Ölkənin Brestskaya, Vitebskaya, Qomelskaya, Minskaya, Moqilyevskaya və Qrodnenskaya kimi 6 iri vilayəti üçün rayonlaşdırılmışdır.




Bitkiləri indeterminant tiplidir. Yarpağı yaşıl rəngli, kənarı kəsiklidir. Çiçək salxımı sadə tipli və yığcamdır. Meyvəsi yastı-yumru formalı, orta diametri 69 mm, bərkliyi orta səviyyəli, toxum yuvalarının sayı 3-4 ədəddir.



Meyvə saplağı batıqdır, saplaq ətrafında yaşıl ləkəsi yoxdur. Yetişmiş meyvənin rəngi qırmızıdır.

Vegetasiya dövrünün uzunluğuna görə hibrid ortayetişəndir.



Sınaq illərində əmtəəlik məhsuldarlığı hər kv.m sahədən 12,5 kq-dır.



Təzə meyvələrin dedqustasiya qiyməti – 5,0 baldır.

Əkindən ilk meyvələrin yığımına qədər 68 gün keçir.

Hibridin məhsulu universal təyinatlıdır.

*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*



# Pomidor

# AQENÇIK

# sortu